Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının

Sədri cənab Anar Bağırova

Məcidova Sevdaxanım Aşum qızı tərəfindən

Ünvan: Bakı şəh, Binəqədi qəs., Gülüstan küç. Dön.6, ev 27

Telefon: +994 55 663 24 75

# TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli cənab Sədr,

Bu təşəkkür məktubun uzun illər 2 saylı Yasamal Poçt Baş İdarəsində mühəndis olaraq fəaliyyət göstərmiş, oğlumun işi ilə əlaqədar vəkil Azər İbrahimovun fəaliyyətindən kifayət qədər məmnun qalmış bir Ana olaraq yazıram.

Hər kəsə məlumdur ki, son dövrlərdə Vəkillər Kollegiyasının fəaliyyətində kifayət qədər irəliləyişlər var. Bunun üçün öncəliklə Sizə və dəyərli kollektivinizə dərin təşəkkürlərimi bildirmək istəyirəm.

Bildirirəm ki, oğlum Məcidov Aqil Adil oğlu 234.1-ci maddə ilə təqsirli bilinərək həbs olunmuşdur. Oğlum Məcidov Aqilin hüquqlarının müdafiəsi üçün dövlət hesabına vəkil – İbrahimov Azər Famil oğlu təyin olunmuşdur. Vəkilim mənə övladımın hüquqlarının müdafiəsi, hüquqlarının pozulmasının qarşısının alınması üçün bu çətin yolda kifayət qədər dəstək olmuşdur. Belə ki, oğlum həbs olunduğu gündən Azər bəy oğlumla mütəmadi olaraq konfidensial görüşlər keçirmiş və bu görüşlər nəticəsində oğlumun günahsız olduğunu müəyyən etmişdir. Vəkilim oğlumun günahsız olduğunu sübut edən kamera görüntülərini Azər İbrahimov peşəkar fəaliyyəti ilə ortaya çıxarmışdır. Yekun olaraq, 1(102)-1080/2023 saylı iş üzrə 16.06.2023-cü il tarixli Bakı Ali Məhkəməsinin sevindirici qərarı ilə bəraət qüvvədə saxlanılmışdır. Nəticədə 9 ay müddətində günahsız olaraq həbs olunan oğlum bəraət əldə etmişdir.

Hörmətli Anar müəllim, bu təşəkkür məktubun sizə yazmağa məni vadar edən səbəb vəkilimin çıxılmaz vəziyyətimdə mənə və oğluma daim dəstək olması və bizim hüquqlarımızın qorunması üçün əlindən gələni əsirgəməməsi olmuşdur. Vəkilim Azər İbrahimov proses boyu daim yanımızda olmuşdur. Mənim ən çətin anlarımda vəkilimin mənə və oğluma daim kömək etmişdir. Vəkil Azər İbrahimovun vəkillik fəaliyyətindən kifayət qədər razı qaldım. Bir Ana kimi belə vəkillərimizə dəyər verməyinizi xahiş edirəm. Eləcə Azər İbrahimov kimi vəkillərin bizə dəstək olması və hüquqlarımızın müdafiəsi üçün şərait yaratdığınıza görə sizə dərin minnətdarlığımı bildirirəm.

Hörmətlə,

Məcidova Sevdaxanım Aşum qızı

Tarix: 13.09.2023

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3144
«13» 09 2023 il